

Almaniyalı Formula 3 pilotu Sofiya Flerş mövsümün sonra yarışı olan Makao Qran Prisində dəhşətli qəza törədib.

17 yaşlı Sofiya sıx baryerlərin, dar trekin olduğu yarışda dördüncü dövrədə bolidində idarəetməni itirib. Təhlükəsizlik baryerlərini belə aşaraq, fotoqrafların olduğu kabinəyə uçub.

Qəza nəticəsində sürücülərdən biri də yarışı dayandırmalı olub. Qırmızı bayraq qaldırılıb. Yarışa fasilə verilib.

FİA-nın yaydığı məlumata görə, qəzadan sonra Sofiya huşunu itirməyib. Onu yaxınlıqdakı tibbi mərkəzə aparıblar.

Rəsmi məlumatlara görə, 4 nəfər ağır yaralanıb – 3 fotoqraf və 1 marşal.

Bir saatlıq fasilədən sonra yarışa restart verilib. Yarışın qalibi Motorpark komandasının britaniyalı pilotu Den Tiktum olub.

https://www.youtube.com/watch?time_continue=18&v=g7Do6C0hlKo